Elmi Xəbərlər Jurnalı Nömrə 5, 2025 59-63
DOI:10.30546/gdu.5.2025

UOT:94.

# ƏRƏB – İSRAİL MÜNAQİŞƏSİNDƏ ABŞ-IN MÖVQEYİ

***Süleymanov Yəhya İsrail oğlu***
***Gəncə Dövlət Universiteti***
**Bagirova69@list.ru**

**Xülasə:** *Son 60 ildən də bir qədər artiq zaman müddətində ABŞ-ın Yaxın Şərq siyasətinə nəzər yetirərkən belə bir nüas ortaya çıxır ki, İsrai dövlətiningirdiyi münaqişələr zamanı nəticəsindən asılı olmayaraq daim ABŞ-ın ilk münasibəti tərəfləri sakitləşdirmək olub. Az bir müddətdən sonra isə İsrailin gətirdiyi arqumentlər ABŞ tərəfindən bir mənalı olaraq dəstəklənmişdir.*

**Açar sözlər:** Yaxın Şərq, hərbi müdaxilə, ABŞ-nin siyasəti, arqumentlər
**Ключевые слова:** Ближний Восток, военные действия, политика США, аргументы
**Key words: Middle** East, military actions, politicy of USA, argumentes

İkinci dünya müharibəsindən sonra, 1945-ci ildə yaradılan BMT Təhlükəsizlik Şurasinin beş daimi üzvündən olan ABŞ və SSRİ bu təşkilatda əsas rol oynayirdılar. 1946-cı ildə soyuq müharibənin başlanması ilə ABŞ ilə SSRİ arasında dünyanın müxtəlif regionlarında nüfuz dairəsini genişləndirmək üçün amansız siyasi qarşıdurma başlandı. Qütbləşmə prosesi dünyanın bir çox regionlarinda ABŞ və SSRİ-nin maraqlarına uyğun rejimlərin meydana gəlməsi ilə nəticələndi. Sovet İttifaqı sosialist qüvvələrə dəstək verərək onların hər yerdə hakimiyyətə gəlməsinə çalışırdı.

Dünyanın ən zəngin regionlarindan olan Yaxın Şərqdə həm Sovet İttifaqının, Amerika Birləşmiş Ştatlarının və Avropanın bir çox dövlətlərinin maraqları toqquşurdu. Dünya mədəniyyətinin ən qədim və zəngin bölgələrindən hətta birinci olan bu bölgə bəşər tarixinə zəngin sivilizasiyalar bəxş etmişdir. Ən qədim tarixi mərkəzlərdən biri olan Qüds (Yerüsəlim) şəhəri üç müxtəlif dinlərin mərkəzidir. BMT-nin 29 noyabr 1947-ci ildə qəbul etdiyi qərara əsasən Fələstində yəhudi və ərəb dövlətləri yaradılmalı idi. 1948-ci il mayın 14-də İsrail öz yerini dünya siyasi xəritəsində tapdı. İsrailin mövcudluğunu qəbul etməyən ərəb ölkələri bu dövlətə qarşı müharibə elan etdilər. Beləliklə də, Yaxın Şərq münaqişəsinin əsası qoyulur və ilk Ərəb-İsrail müharibəsi baş verdi.

On beş aya qədər davam edən bu müharibə Yunanıstanın Rodos adasında 1949-cu ildə atəşkəs haqqında müqavilənin imzalanması ilə nəticələndi. Bu sənədə görə BMT-nin xüsusi elçisi Ralf Bançanın vasitəçiliyi ilə sazişi müharibədə iştirak edən beş ərəb dövlətindən dördü imzalayır: Misir, Livan, İordaniya və Suriya, yalnız İraq bu sazişi imzalamaqdan imtina etdi. Osmalı imperiyasının süqutundan və bölüşdürülməsindən sonra Yaxın Şərqdəki ölkələrdən Suriya və Livan Fransanın, qalanları isə İngiltərənin mandatına verildi.

BMT Təhlükəsizlik Şurasının qərarına əsasən İsrail dövləti yaradılsa da Fələstin ərəb dövlətinin hələ də yaradılmaması tərəflər arasında münasibətləri kəskinləşdirdi. Belə ki, 1964-cü ildə Qahirədə keçirilən ərəb dövlətləri başçılarının zirvə toplantısı iki qərar qəbul etdi: birincisi, qeyd olunudu ki, İsrail sudan məhrum olunsun, ikincisi isə yeni Fələstin hərəkatının yaradılmasını tələb edirdilər. Beləliklə "Fələstin Azadlıq Təşkilatı" (FAT) yaradıldı və Yasir Ərəfat (1929-2004) onun rəhbəri seçildi.

Sovet İttifaqının dəstəyi ilə 1960-cı ildə Suriyada, 1968-ci ildə isə İraqda BƏƏS (Dirçəliş) partiyası siyasi hakimiyyətə gəldi. Misir prezidenti Camal Əbdül Naser (1918-1970) ərəb dünyasında sol qüvələri dəstəkləyirdi. O, Yəməndə baş verən vətəndaş müharibəsində kommunistlərin köməyinə könüllü dəstələr göndərirdi. Bu dövrdə Yaxın

DOI:10.30546/gdu.5.2025

Şərqdə ABŞ siyasi və iqtisadi yardım proqramasını tərtib etmişdi. İlk növbdə İran körfəzinin zəngin ərəb dövlətləri ilə ABŞ arasında bir sira müqavilələr baqlanmışdır. Neft ixracında Səudiyyə Ərəbistanı XX əsrin 60-cı illərində dünyada birinci yerə çıxdı.

1967-ci ilin may-iyun ayları Ərəb-İsrail münasibətlərini kəskinləşdirdi.Həmin ilin iyununda baş verən altıgünlük müharibədə İsrail, Misirdən Sinay yarımadasını, Suriyadan Qolan (Colan) yüksəkliklərini, İordaniyadan isə İordan çayının qərb sahilini işğal etdi. ABŞ-ın o vaxtkı dövlət katibi Uilyam Rocersin (1913-2001) vasitəçiliyi ilə tərəflər 1970-ci ilin avqustunda atəşkəs haqda razılığa gəldilər. Həmin ildə Misir prezidenti Camal Əbdül Naserin vəfatı ilə Misirdə hakimiyyətə Ənvər Sadat (1918-1981) gəldi. Beləliklə, Misirdə sosializ uğursuzluğa düçar oldu. Ənvər Sadat “intifah” – açıq qapı siyasi doktrinasını irəli sürdü. Ənvər Sadat ABŞ-a meylli bir siyasətçi idi.   1978-ci ilin sentyabrında Kemp-Deviddə ABŞ prezidenti Cimmi Erl Karterin sədrliyi ilə Misir prezidenti Ənvər Sadat və İsrailin Baş Naziri Menahem Begin sülh müqaviləsini imzaladılar, beləki, Sinay yarımadasının Misirə verilməsi və hər iki tərəfin bunu tanıması təsdiq edildi. Bu müqavilə dörd dəfə baş vermiş Misir-İsrail müharibəsinin başa çatmasını təsdiq etdi.

Sonralar Kemp-Devid sövdələşməsinin imzalanması ərəblərin mənafeyinə ziidd olduğu üçün və eyni zamanda sülh prosesini inkişafını ləngitdiyinə görə kəskin tənqidlərə məruz qaldı. Bu günə kimi də ərəblərin həmrəyliyinin dağıdılmasına səy göstərmiş o vaxtkı ABŞ prezidenti olmuş Cimmi Erl Karterin ünvanına ittihamlar səslənməkdədir. Lakin ABŞ prezidentinin sənədlərini öyrənərkən o da məlum olmuşdur ki, Kemp-Devid sazişi Cimmi Erl Karter üçün İsraili qonşu ölkələrlə barışdırmaq məsələsində ilk həlledici addım olmuşdur və buna da qonşu ərəb ölkələri də riayət etməli idilər, lakin hadisələrin real inkişafı, yəni Yerüsəlimin İsrailin tərkibinə qatılması, İordan çayının qərb sahilində yəhudi məskənlərinin salınması və Suriyadakı Colan yüksəkliklərinin İsrail tərəfindən ilhaq edilməsi kimi hadisələr praktiki olaraq sülh prosesini dayandırmış oldu. Qeyd etmək lazımdır ki, israillilər üçün bir çox məsələlər, o cümlədən Fələstin ərazilərinin işğalı və Yerüsəlimin sonrakı taleyi məsələsi olduqca ağırlı məsələlər idi və danışıqlar iflasa uğramasın deyə prezident Karter bu məsələləri razılığın əsas mətni kimi deyil, İsraildə ictimai sorğunu hazırlamaq üçün tərəflərin bir-birinə məktub formasında təqdim etməsini təklif etdi. Nəticədə, 1978-ci il sentyabrın 17-də ABŞ nümayəndə heyəti həm israilliləri həm də ki ərəbləri qane edən sülh sazişinin son layihəsi ilə çıxış etmiş oldu.

Beləliklə, 1978-ci ilin sentyabrında ABŞ-ın bibaşa vasitəçiliyi ilə Kemp-Deviddə Misir prezidenti Ənvər Sadat ilə İsrailin Baş Naziri Menahem Beginin apardıqları danışıqların gedişinin nəticəsi kimi “Yaxın Şərq Üzrə Sülh Danışıqları Üçün Çərçivələr” və “Misirlə İsrail Aarasında Sülh Müqaviləsinin Bağlaqması Üçün Çərçivələr” adlı sənədlər imzalandı.

“Misir ilə İsrail arasında Sülh Müqaviləsiin Bağlanması Üçün Çərçivə” adlanan ikinci sənəddə isə tərəflər  3 ay müddəti ərzində müfaviq sənədlərin hazırlanmasına razılığa gəldilər İsrail 3 ay müddəti ərzində öz qoşunlarını Sinay yarımadasından 1967-ci il sərhədlərinə çıxarmağa razılıq verirdi.

Onu da qeyd etmək lazımdır ki, ABŞ-ın sayca 39-cu eks prezidenti Cimmi Erl Karter “Dünyadakı Münaqişələrin Sülh Yolu İlə Həlli Üzrə Səylərinə və İnsan Haqları Uğrunda Mübarizəyə Görə” 2002-ci ildə Nobel Sülh Mükafatına layiq görülmüşdür.

Misir prezidenti Ənvər Sadatın Yerüsəlimə səfəri ərəb ölkələrinin əksəriyyətində etirazla qarşılandı. Suriyanın, İraqın, Əlcəzairin, Liviyanın kütləvi informasiya vasitələri, eləcə də Fələstin Azadlıq Təşkilatı Misir prezidentini kəskin tənqid edərək, Qahirədə keciriləcək Ərəb dövlətləri  Cəmiyyətinin Zirvə Görüşünü və İsrail ilə əlaqəsi olan Misir şirkətlərinə ticarət boykotu elan etdilər .Eynizamanda bu ölkələr Misir ilə diplomatik

DOI:10.30546/gdu.5.2025

əlaqələrini dondurmaları haqqında da bəyanat verdilər. Misirdə öz növbəsində bu ölkələrlə diplomatik münasibətləri kəsməklə FAT-ı öz dəstəyindən məhrum etmiş oldu.

Fars körfəzindəki müharibənin başa çatmasından sonra bütövlükdə Yaxın Şərqin tarixində, o cümlədən Ərəb-İsrail münaqişəsinin tarixinin özündə də yeni mərhələ başlamış oldu. 1991-ci il martın 6-da ABŞ-ın 41-ci prezidenti ata Corc Buş BMT-nin çərçivələrindən kənarda Yaxın Şərq böhranının nizamılanmasını "torpaq əvəzinə sülh" şüarı ilə təklif etdi.

Madrid konfransına gedən yol olduqca cətinliklərə rast gəldi. Beləki İsrail tərəfi ərəb-israil münaqişəsinin dinc yolla nizamlanması prosesində BMT-nin iştirakını qətiyyətlə rədd edirdi ki, buna da bəhanə o idi ki, BMT birtərəfli qaydada ərəblərin mövqeyini müdafiə edirdi. Bundan əlavə, Təl-Əviv hər bir ərəb dövləti ilə ayrıayrılıqda birbaşa danışıqların aparılmasını da təkid edirdi.

Bu kimi cətin fövqəladə vəziyyətə baxmayaraq ərəb dövlətləri və fələstinlilər ABŞ-ın vədlərinə və o vaxtkı prezident Corc Buş-atanın xeyirxah niyyətlərinə inanaraq Madrid konfransının işində iştirak etməyə razılıq vermişdilər.

1991-ci ildə İraq prezidenti Səddam Hüseyn ABŞ-ın müttəfiqi olan Küveytə müdaxilə etdi. ABŞ və onun müttəfiqləri bu təhlükəni məhv etmək üçün ABŞ ordusunun generalı Norman Şvartskopfun başçılığı altında "Səhrada Förtına" şərti adı altında hərbi əməliyyatını həyata keçirdi. Sovet İttifaqının dağılması ABŞ-ı yeganə super güc dövlətinə çevirdi. Artıq onun qarşısında maneə yox idi.1993-cü ildə prezident Bill Klintonun vasitəçiliyi ilə İsraillə Fələstin arasinda Qəzza-Əriha sazişi (Yol xəritəsi) sazişi imzalandı. Sazişə görə Fələstin muxtariyyəti yaradildı. 2001-ci il 11 sentyabr hadisələri nəticəsində ABŞ 2003-cü ilin martında İraqa müdaxilə təşkil etdi. Səddam Hüseyn rejimi devrildi və ABŞ-a meylli qüvvələr hakimiyyətə gəldi. 2004-cü ilin noyabrında FAT-ın sədri Yasir Ərəfatın vəfatı Fələstin hərəkatında daxili çaxnaşmaları büruzə verdi və qruplaşma nəticəsində bir neçə hərəkatlar yarandı,hansı ki, bunlar da ayrı-ayrı dövlətləri özlərinə müttəfiq seçdilər. 2006-cı ildə Yaxın Şərqdə yenidən müharibə alovlandı . ABŞ-ın birbaşa dəstəyi ilə İsrail Livana qarşı hərbi əməliyyatlara başladı. Arqument kimi radikal Hizbullah təşkilatının İsrailə raket zərbələri endirməsi göstərilirdi. Bu susqun həmrəyliyin içərisində yenə əvvəlkindən Vaşinqton səsi daha çox eşidilir. ABŞ humanitar fəlakət və beynəlxalq normaların pozulması hesabına olsa belə öz müttəfiqinin, yəni İsrailin özünümüdafiə hüququna dəstək verdi.

2006-cı il avqustun 15-də BMT Təhlükəsizlik Şurası bağlı qapılar arxasında növbədənkənar toplantı keçirdi və hərbi əməliyyatların dayandırılması üçün çox səylər göstərmiş oldusa da, lakin qətnamə ABŞ tərəfindən qəbul olunmadı. ABŞ Prezidenti Corc Buş-oğul öz növbəsində bildirdi ki, regionda baş verən hadisələrdə günahkar Hizbullah qruplaşması və onun arxasında dayanan Suriyadır. Atəşin dayandırılmasını "vaxtsız" addım hesab edən ABŞ hamını atəşkəs üçün şəraitin yaradılmasına, yəni İsrailin şərtlərinin qəbuluna çağırdı. ABŞ-dan fərqli olaraq Avropa Birliyi atəşin dayandırılmasına çağırdı. 2006-cı il müharibəsində İsrail Hərbi Hava və Dəniz Qüvvələrinin fəaliyyəti ona gətirib çıxartdı ki, İkinci Dünya müharibəsindənsonra Livanda ən böyük evakuasiya həyata keçirildi.

Artıq 2006-cı il dünya tarixinə İsrail-Livan müharibəsi kimi düşdü. XX əsrdə müharibələrin dəfələrlə qurbanı olmuş Livanın dinc əhalisi yenə də qanına qəltan edildi.

Bir çox Avropa ölkələri İsrailin Livana təcavüzünü pisləsə də ABŞ İsraili nəinki maddi və texniki cəhətdən dəstəklədi, hətta atəşkəsin olmasina mane olmaq üçün BMT-də öz veto hüququndan da istifadə etdi.

İsrail-Ərəb münaqişəsi, o cümlədən İsrail-Livan münaqişəsi ABŞ-ın Yaxın Şərq siyasətinin tərkib hissəsidir. Bu münaqişə İsrail dövləti yaranandan sonra daha ciddi xarakter alsa da, əslində etnik və ya dini münaqişə deyil. Bu münaqişələrin əsasını XIX əsrin sonu XX əsrin əvvəllərində Böyük Britaniya tərəfindən qızışdırılması və İkinci Dünya müharibəsindən

DOI:10.30546/gdu.5.2025

sonra məhz ABŞ tərəfindən idarə edilərək ABŞ-ın Yaxın Şərqdəki siyasətinin həlli üçün istifadə edilməsi faktını da görmək heç də çətin deyil.

Ərəb-İsrail münaqişələriin tarixi belə bir sualı ortaya qoyur: ABŞ Ərəb-İsrail münaqişələrinin həllində maraqlıdırmı? Ərəb-İsrail münaqişəsi tarixən ABŞ tərəfindən yaradılmasa da bu xalqlar arasındakı tarixi çəkişmələrdən və toqquşmalardan ABŞ və İngiltərə sonrakı dövrlərdə öz məqsədləri üçün məharətlə istifadə etmişlər.

İkinci Dünya müharibəsindən qalib çıxmış və dünyanın yenidən bölüşdürülməsində öz təsir gücünü durmadan genişləndirən ABŞ öz iqtisadiyyatında enerjiyə artan tələbatı nəzərə alaraq Yaxın Şərqə xüsusi önəm vermişdir.

Yaxın Şərq regionunda böyük neft yataqlarının nəzarətə alınması məqsədilə regionda yerləşən ölkələrin daxilində hər hası münaqişələrin yaradılması ABŞ-ın xarici siyasəti üçün kifayət etmirdi. Yaxın Şərqdə dayanıqlı müttəfiqin əldə edilməsinə və onun ərazisindən hərbi məqsədlər üçün istənilən vaxt istifadə etmək imkanının olmasına böyük ehtiyac var idi. Bu ölkə nəinki ABŞ-ın faktiki olaraq hərbi bazası rolunu oynamalı, həmçinin ondan region ğlkələrinə qarşı zor vasitəsi kimi istifadə etmək mümkün olmalı idi. Bu ölkə hər an ABŞ-ın hərtərəfli dəstəyinə arxalanaraq ABŞ-ın Yaxın Şərqdə müstəmləkəçilik siyasətini həyata keçirməli, mümkün hərbi qarşıdurmaları öz üzərinə götürməklə belə təhlükələri ABŞ-ın sərhədlərindən xeyli uzaqlaşdırmalı və ABŞ-ın arasıkəsilməz "kiçik müharibələrlə" bağlı bəşəriyyət qarşısındakı tarixi məsuliyyətini bölüşdürməli idi. Belə ölkə Yaxın Şərqdə İsrail oldu. Belə missiyanı yerinə yetirmək üçün İsrailin seçilməsi hec də təsadüfi deyildi. ABŞ siyasi həyatında, iqtisadi və maliyyə bazarında güclü nüfuza malik olan Sionist lobbisi yalnız İsrail kimi ölkəyə tam arxalana bilərdi.

İsrail lobbisinin ABŞ xarici siyasətinə güclü təsiri haqqında Mearşemer C. və Uolt S. tərəfindən hazırlanmış "İsrail lobbisi və ABŞ-ın xarici siyasəti" adlı məqalə xüsusilə diqqəti cəlb edir. İsrail lobbisinin ABŞ-ın xarici siyasətinə aparıcı təsiri və Yaxın Şərq ölkələri üçün son əlli ildə yaranan təhlükələr , həmçinin yaxın onilliklərdə regionda baş verməsi ehtimal olunan yeni təhlükələr haqqında bu məqalədə geniş şərh verilir.

Məhz bu səbəbdən 1947-1948-ci illərdə Fələstin ərazisində İsrail dövlətinin yaradılması ABŞ tərəfindən dəstəklənmiş və sonrakı dövrlərdə ABŞ-İsrailalyansı ən yüksək səviyyədə inkişaf etmişdir. Bu alyansın əsasında təkcə ABŞ-ın İsrail lobbisinin siyasi və iqtisadi maraqları yox, həmçinin ABŞ-ın neft maraqlarının dayandığı şübhə doğurmur. 2004-cü ilin məlumatlarına görə yalnız Fars (İran) körfəzi ölkələri ABŞ-ın idxal etdiyi neftin təqribən 24 faizini təmin edir. Bu, ABŞ-ın istehlakının 10 faizindən çoxdur. Hələ 1990-cı ildə Fələstin Azadlıq Təşkilatının lideri Yasir Ərəfat deyirdi ki, "Şimal dənizində neft tükənəndə Birləşmiş Ştatlar Ərəb neftini almaq istəyəcək. Amerikanın öz nefti tükənməyə başlayanda və ABŞ-ın istehlakı artanda isə Amerika Ərəblərə daha çox ehtiyac duyacaqdır". Dünyada neftə olan ehtiyacın ildən ilə artmasını və alternativ enerji daşıyıcılarının hələ yaxın zamanlarda nefti əvəz edə bilməyəcəyini nəzərə alsaq, ABŞ-ın neft uğrunda mübarizəsinin kəskinləşəcəyini və Yaxın Şərqdə geosiyasi vəziyyətin getdikcə gərginləşəcəyi söyləmək olar.

Yaxın Şərq regionunda ciddi siyasi və iqtisadi maraqları olan ABŞ bu Ərəb – İsrail münaqişəsinin həllinin mümkün olduğu dövrlərdə də onun dondurulması və ya gərginliyin saxlanılması yolunu tutmuşdur. İsrail dövləti yaradıldıqdan sonra, onun açıq-aşkar dəstəklənməsi və ona hər cür, o cümlədən hərbi, maliyyə və siyasi yardımların göstərilməsi, İsrailin Yaxın Şərqdə İsraili hər an zor tətbiq etməsinə "yaşıl işığın" yandırılması, əslində bu münaqişələrin sonrakı dövrlərdə daha da dərinləşməsinə səbəb olmuşdur. 1966-cı ildə ABŞ tərəfindən İsrailin müasir hərbi texnika ilə silahlandırılması və BMT-nin 1956-cı ildə İsrailin silahlandırılmaması ilə bağlı qəbul etdiyi qətnamənin kobud şəkildə pozulması sonrakı dövrlərdə, ocümlədən 1982-ci və 2006-cı illərdəki İsrail-Livan qrşıdurmasının başlanğıcını

DOI:10.30546/gdu.5.2025

qoymuşdur. Fələstinin müstəqilliyini nəzərdə tutan BMT qətnamələrinin yerinə yetirilməsi üçün İsrailin siyasi dairələrinə heç bir təzyiq göstərməyən ABŞ, əksinə dünya neftinin üçdə ikisinə malik olan Yaxın Şərqdə münaqişə ocaqlarının mövcüdluğunda çox maraqlıdır. Odur ki, İsrailin Yaxın Şərq regionunda zor vasitəsi kimi istifadə edilməsi üçü onun silahlandırılmasına ABŞ tərəfindən durmadan yardım göstərilir.

***Ədəbiyyat***


1. Azərbaycan Sovet Ensiklopediyası X cilddə, Bakı, 1976-1987.
2. R. F. İvanov "Duayt Eyzenhauer", Bakı, "İşıq" Nəşçriyyatı, 1985.
3. M. Qasımlı "Avropa və Amerika Ölkələrinin Ən Yeni Tarixi"cilddə, 2-ci cild, Bakı, 200 8.
4. Советская Историческая Энциклопедия» в 16-ти томах, Москва, 1961-1976.
5. А.Н. Яковлев «От Трумена До Рейгана», Москва, 1985.
6. А.Н. Яковлев «ЦРУ Против СССР» Москва, 1985.
7. Э.А. Иванян «Белый дом: президенты и политика»,Москва, 1975.
8. В. Корионов «Соединенные Штаты как они естЬ» Москва,1974.
9. Сто Великих Правителей XX Века», Москва, 2000.
10. ABŞ Demokratiyası Haqqında Əsas Mətnlər. Tərtibçi Melvin İ. Urofski Siyasi və İqtisadi Araşdırmalar Mərkəzi (FAR CENTRE),2005.


## ПОЗИЦИЯ США В СТОЛКНАВЕНИЯХ МЕЖДУ ИЗРАИЛЕМ И АРАВИЕЙ

***Сулейманов Яхья Исрафил оглы***

***Резюме***

За последние 60 лет, опиралсь на политику США в отношении Ближнего Востока, надо учитывать тот нюанс что несмотря на те военные действия Израиля в отношении других стран и его результаты, США всегда придерживалась в урегулирование этих столкновений. Через некоторое время аргументы вынесенные Израилем были однозначно поддержаны США.

## THE POSİTİON USA İN RELATİONS BETWEEN ISRAEL AND ARABIA

***Suleymanov Yakhya***

***Summary***

The last 60 years, look at the politicy of USA for Middle East considered that military actions of Israel other countres and theirs rezults, USA tray regulated these wars. Some times passed argumentes take Israel the same time supported by USA.

***Rəyçi: dosent Allahverdiyeva Gültəkin***
***Daxil olma tarixi 17 oktyabr 2025-ci il***